**AZƏRBAYCAN RESPUBLİKASI**
**KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ**
---------------------------------------------------------------------------

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

============================================

*Əlyazması hüququnda*

**TEYMUR ŞAHVƏLƏDOVİÇ ƏLİYEV**

# AZƏRBAYCAN RESPUBLİKASININ QEYRİ-NEFT SEKTORUNA İNVESTİSİYALARIN CƏLB OLUNMASININ MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

**5308.01. – «Ümumi iqtisadiyyat»**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Gəncə – 2014**

Dissertasiya işi Bakı Dövlət Universitetində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Amil Məmmədəli oğlu Məhərrəmov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Cəmilə Bayram qızı Namazova**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Nazim Özbəy oğlu Hacıyev**

**Aparıcı təşkilat:** **AMEA-nın İqtisadiyyat institutu**

Müdafiə 29 aprel 2014-cü il saat $14^{00}$ da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır:
AZ 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 27 mart 2014-cü ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya**
**şurasinin elmi katibi, iqtisad üzrə**
**fəlsəfə doktoru, dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Məlum olduğu kimi Azərbaycan Respublikası beynəlxalq siyasi və iqtisadi münasibətlər sisteminin subyektlərindən biridir. Respublika müstəqillik əldə etdikdən sonra dövlətin iqtisadi və siyasi gücünün artırılması və beynəlxalq mövqelərinin möhkəmləndirilməsi istiqamətində bir sıra önəmli işlər görülmüşdür. Bununla belə, Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzü və həmçinin Respublikanın uzun müddət inzibati idarəetmə üsulu əsasında idarə olunması innovativ prosesə, iqtisadiyyata yeni baxışın işlək hal almasına, sosial rifaha birbaşa, bəzi sahələrdə isə dolayısı ilə mənfi təsir etməkdə idi. Azərbaycanın iqtisadi yüksəlişinin təmin edilməsi üçün tələb olunan həm struktur, həm də digər məsələləri özündə ehtiva edəcək, iqtisadi islahatlar böyük dövlət idarəçilik təcrübəsinə malik rəhbər, Azərbaycanın Ümummilli lideri Heydər Əliyev tərəfindən həyata keçirildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ildən əsasını qoyduğu və sonrakı illərdə uğurla həyata keçirdiyi neft strategiyası və konsepsiyası müasir Azərbaycanın xarici iqtisadi yüksəlişinin təməllərini təşkil etdi.

Ümummilli Liderin neft sektorundan əldə olunan gəlirlərin iqtisadiyyatın çoxşaxəli inkişafına yönəldilməsi və prioritet olaraq qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi istiqamətində aparılan siyasəti 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş İlham Əliyev tərəfindən uğurla davam etdirildi. İnvestorların və iş adamlarının fəaliyyəti qarşısında süni maneələrin aradan qaldırılması üçün iqtisadiyyatın bir çox sahələrində bir pəncərə sisteminin tətbiqinə başlandı. 2003-2012-cü illərə ötəri nəzər saldıqda ölkə iqtisadiyyatında artıq, tamamilə yeni mərhələnin başladığı hiss edilir. 2003-2012-ci illərdə ölkəmizdə ümumi daxili məhsul (ÜDM) 3 dəfə, qeyri-neft ümumi daxili məhsulu isə 2,4 dəfə artmış, həmin dövrdə Azərbaycanın strateji valyuta ehtiyatları 28,8 dəfə artaraq 46 milyard dolları keçmişdir. Yoxsulluğun səviyyəsi 44,7%-dən 6%-ə, işsizlik isə 5,2%-ə qədər azalıb. 2003-2012-ci illər ərzində Azərbaycan iqtisadiyyatına yönəldilən 128,3 milyard dollar investisiyadan 65,7 milyard dollarını daxili investisiyalar təşkil etmiş və xarici ticarət dövriyyəsi 6,4 dəfə artmışdır. Sənayeləşmə hökumətin siyasətində başlıca prioritetlərdən olaraq qalmaqda davam edir. Belə ki, sözügedən dövrdə bu sahədə istehsal 2,6 dəfə artdı və kompleks tədbirlər hesabına yaxın illərdə bu rəqəmin daha da yüksək olması nəzərdə tutulur. Eyni zamanda ölkə başçısı tərəfindən 2014-cü ilin Sənayə ilin elan edilməsi bu istiqamətdə qarşıya daha mühüm vəzifələr qoyur. “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü



illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” uğurla həyata keçirildi. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” qəbul edildi. Sözügedən proqramlarda əsasən qeyr-neft sektorunun inkişafına yönəlmiş bir çox tədbirlər öz əksini tapmışdır. Yuxarıda göstərilənlər Azərbaycanın qeyri-neft sektoruna investisiya yatırımlarının, eləcə də dövlətin investisiya siyasətinin geniş formada öyrənilməsinin təcrübi əhəmiyyətini və dissertasiya mövzusunun elmi aktuallığını bir daha sübut edir.

**Problemin öyrənilmə vəziyyəti.** Azərbaycanın qeyri-neft sektoruna investisiya yatırımlarının cəlb edilməsi, Azərbaycan iqtisadiyyatının neft sektorundan asıllığının azaldılması və qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan dövlət siyasətinin uğurla reallaşdırılmasında böyük əhəmiyyətə malikdir. Azərbaycan respublikasının qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi probleminin ayrı-ayrı aspektləri və parametrləri Azərbaycan alimlərindən Ə.Mahmudov, A.Ələsgərov, A.Nadirov, Z.Səmədzadə, Ə.Nuriyev, A.Məhərrəmov, C.Namazova, A.Əhmədov, B.Ataşov, G.Çənciyev, M.Sadıqov, M.Hüseynov, M. Meybullayev, N.Hacıyev, V.Bayramov, E.Cəfərli, T.Hüseynov, N.Həsənov, İ.Quliyev, F.Məmmədov, K.Sarıyev, L.Abışlı, xarici müəlliflərdən isə M.Boquslavski, S.Bratus, D.David, S.Polenina, B.Lomakin, V.F.Maksimova, İ.Faxrutdinov D.Labin, R.Payps, D.Driskoll, E.Rode və digərlərin əsərlərində tədqiq edilmiş və öyrənilmişdir. Bu sahədə yazılmış elmi əsərlərin, elmi-tədqiqat işlərinin əhəmiyyətini azaltmayaraq qeyd etmək lazımdır ki, qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi problemi ayrıca tədqiqat obyekti kimi az işlənilmişdir. Bu səbəbdən dissertasiya mövzusunun tədqiq edilməsi zərurəti yaranmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi müasir Azərbaycan iqtisadiyyatında qeyri-neft sektoruna investisiya qoyuluşunun səmərəli istifadə edilməsinə dair təkliflər hazırlamaqdır. Qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələr icra edilmişdir:

- İnvestisiyannın sosial-iqtisadi mahiyyətini və ona dair elmi nəzəri baxışları kompleks formada araşdırmaq;
- Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunun zəruriliyini və maddi ilkin şərtlərini araşdırmaq;
- Müstəqil Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşlarının mərhələlər (illər) üzrə vəziyyətini və onun səmərəliliyinin meyarlarını təhlil etmək;
- Azərbaycanın qeyri-neft sektoruna investisiya qoyuluşlarının və onun dövlət tərəfindən stimullaşdırılmasının tənzimləmə mexanizminin müəy-

yən etmək;

- Azərbaycanın qeyri-neft bölməsinə investisiyaların cəlb olunmasının müstəqil milli iqtisadiyyatın formalaşmasında rolunu göstərmək;
- Milli iqtisadiyyatın təhlükəsizliyinin təmin olunmasında qeyri-neft bölməsinin rolunu müəyyən etmək;
- Qeyri-neft bölməsinə investisiya qoyuluşlarının maliyyələşdirilməsi mənbələrini təsnif etmək;
- Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya olunmasında qeyri-neft sektoruna investisiya qoyuluşunun rolunu göstərmək;
- Regionların iqtisadi potensialının reallaşdırılmasında qeyri-neft bölməsinə investisiya resurslarının tətbiqini təhlil etmək;
- Ölkənin ixrac potensialının reallaşdırılmasında qeyri-neft bölməsinə investisiyaların cəlb olunmasının perspektivlərinə dair təkliflər vermək.

**Tədqiqatın obyekti.** Azərbaycan Respublikasının qeyri-neft sektoruna daxil olan subyektlər.

**Tədqiqatın predmeti.** Azərbaycan Respublikasının qeyri-neft sektoruna investisiyaların cəlb olunmasının problem və prespektivləri.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqat işinin nəzəri-metodoloji əsasını respublikanın və xarici ölkələrin iqtisadçı alimlərinin qeyri-neft sektorunun investisiyalaşdırılması ilə bağlı əsərləri, bu sahədə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq hüquqi-normativ aktları təşkil edir.

Dissertasiya işinin yerinə yetirilməsində iqtisadi-statistik təhlil, müşahidə, müqayisəli və sistemli təhlil, dinamika və s. metodlardan istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Tədqiqat işinin hazırlanmasında Azərbaycan Respublikası İqtisadiyyat və Sənayə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası Dövlət Neft Fondunun, Azərbaycan İnvestisiya şirkətinin, Sahibkarlığa Kömək Milli Fondunun statistik hesabatlarından və həmçinin internet resurslarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- xarici investisiyaların cəlb olunması tələbatı, onun zəruriliyi və maddi ilkin şərtləri müəyyən edilmişdir;
- Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşlarını müxtəlif dövrlər üzrə tətbiq olunma səviyyəsi və onun səmərəlilik meyarları şərh olunmuşdur;
- Azərbaycanın qeyri-neft sektorunun inkişafına investisiya qoyuluşlarının prioritet istiqamətləri müəyyənləşdirilmişdir;



- Qeyri-neft sektoruna investisiya qoyuluşlarının səmərəliliyinin yüksəldilməsinə dair təkliflər hazırlanmışdır;
- Qeyri-neft sektorunun Azərbaycan milli iqtisadi inkişaf modeli kontekstində əsas parametrləri müəyyən olunmuşdur;
- Qeyri-neft sektorunun infrastrukturu və investisiya cəlb edicilik dərəcəsi, ona təsir edən amillərin qanunauyğunluqları müəyyən edilmişdir;
- Ölkənin iqtisadi gücünün artırılmasında qeyri-neft sektorunun rolu əsaslandırılmışdır;
- Azərbaycanın qeyri-neft sektorunun inkişafının ölkənin idxal yönümlü iqtisadiyyatdan ixrac yönümlü iqtisadiyyata keçməsinin zəruriliyi müəyyən edilmişdir;
- Ölkənin makro-iqtisadi tarazlığın təmin olunmasında qeyri-neft sektoruna investisiya qoyuluşlarının rolu əsaslandırılmışdır;
- Ölkənin milli iqtisadi təhlükəsizliyinin təmin olunmasında qeyri-neft sektorunun inkişafina investisiya qoyuluşlarının rolu müəyyən edilmişdir;
- Azərbaycanın qeyri-neft sektorunda innovasiya və nanotexnologiya yönümlü sahələrin inkişafına investisiya qoyuluşlarının stimullaşdırılmasına dair təkliflər irəli sürülmüşdür.

**Tədqiqat işinin təcrübi əhəmiyyəti**. Azərbaycanın qeyri-neft sektoruna investisiyaların cəlb edilməsinin problem və prespektivlərinin elmi tədqiqat obyekti olaraq öyrənilməsinin həm elmi, həm də praktiki əhəmiyyəti vardır. Məsələnin elmi praktiki tərəfi ondan ibarətdir ki, investisiya fəaliyyəti ilə qeyri-neft sektoru arasında qarşılıqlı münasibətlərin öyrənilməsi zamanı müəyyən metodologiya formalaşır. Bu elmi yanaşma problemin öyrənilməsi üçün əsas təşkil edə bilər. Həmçinin, mövzu geoiqtisadi və praktiki olaraq da böyük əhəmiyyətə malikdir. Bilavasitə, Azərbaycan Respublikasının qeyri-neft sektorunda investisiya fəaliyyətinin dəyişmə dinamikası tədqiq edilir. Həmin dəyişmə dinamikasının izlənilməsi investisiya fəaliyyətinin aktivləşdirilməsi istiqamətində yeni imkanlar açır. Eyni zamanda işin praktiki əhəmiyyəti ondan ibarətdir ki, problemin araşdırılması zamanı hazırlanan təklif və tövsiyyələr qeyri-neft sektorunda dövlətin iqtisadi siyasətinin reallaşmasında öz təsirini göstərə bilər.

**Tədqiqatın nəticələrinin sınaqdan keçirilməsi və istifadə edilməsi.** Dissertasiyanın əsas müddəaları və nəticələri Bakı Dövlət Universitetində keçirilmiş İnsan hüquqları haqqında ümumi bəyannamənin qəbul edilməsinin 62-ci ildönümünə həsr edilmiş “İnsan hüquqları sahəsində Azərbaycan Respublikasının Beynəlxalq əməkdaşlıq siyasəti: formalaşması və yeni inkişaf tendensiyaları” mövzusunda Respublika səviyyəli elmi-praktik

konfransın materiallarında (Bakı, 2010) məruzə edilmiş, «Применение инвестиционных ресурсов в ненефтяном секторе с целью реализации экономического потенциала регионов» (Экономика, социология и право, М., 2009) və «Перспективы привлечения инвестиций в ненефтяной сектор в реализации экспортной политики Азербайджана» (Экономика, социология и право, М., 2009) adlı və digər məqalələrdə öz əksini tapmışdır. Dissertasiya işi ilə əlaqədar olaraq 5 elmi məqalə və 1 tezis çap olunmuşdur.

Dissertasiya işinin əsas nəticələri Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu tərəfindən tətbiq üçün qəbul edilmişdir (29 may 2013-cü il tarixli 33/33-7/06 saylı arayış).

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya giriş, 3 fəsil, nəticə və təkliflərdən, həmçinin istifadə olunmuş ədəbiyyat siyahısından ibarət olmaqla 130 səhifə təşkil edir. Ədəbiyyat siyahısında 105 mənbə göstərilir. Dissertasiya işində 9 cədvəl və 6 şəkil verilmişdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **I Fəsli** "**Azərbaycan iqtisadiyyatının investisiya tələbatı və onun təmin olunması vasitələri**" adlanır. Burada investisiyanın sosial-iqtisadi mahiyyəti və onun elmi-nəzəri əsasları, müasir dövrdə investisiya fəaliyyətinin təzahür formaları, Azərbaycan iqtisadiyyatına investisiyaların tətbiqinin mövcud vəziyyəti və onun tənzimlənmə mexanizmləri şərh edilmişdir. İqtisadiyyat elminin qanunauyğunluqlarına müvafiq olaraq, investisiya fəaliyyəti daim müxtəlif iqtisadi məktəblərin, cərəyanların və nəzəriyyəçilərin diqqətini cəlb etmişdir. Kapital ixracının neoklassik nəzəriyyəsi beynəlxalq ticarətin klassik nəzəriyyəsi əsasında inkişaf etmişdir. Belə ki, onun əsasını D. Rikardonun beynəlxalq ticarətin müqayisəli üstünlüklər prinsipi təşkil edir. Bu prinsipə istinad edərək klassik ingilis iqtisadçısı C.S. Nill XIX əsrdə ilk dəfə olaraq kapitalın ölkələrarası hərəkəti məsələləri ilə məşğul olmağa başladı. Rikardonun ardınca o göstərdi ki, kapital ölkələr arasında gəlirlərinin qeyri-bərabərliyi səbəbindən hərəkət edir. XIX əsrin sonu XX əsrin əvvəllərində ingilis iqtisadçıları, xüsusən də C.A.Hobson və C.Keyns, C.B.Seyin istehsal amilləri konsepsiyasını beynəlxalq münasibətlər sisteminə və kapitalın beynəlxalq hərəkəti sferasına da aid etdilər. Keyns neoklassik nəzəriyyə üçün beynəlxalq ticarət və kapitalın beynəlxalq hərəkətinin alternativliyi haqqında mühüm bir postulat ifadə etmişdir: müəyyən şərtlər daxilində istehsal amillərinin miqrasiyası beynəlxalq ticarəti əvəz edə bilər. Neoklassik nəzəriyyə XX əsrin I onilliyində E.Hekşer və B.Olin, R. Nurkse və K.İverson tərəfindən təkmilləşdirilmişdir. Belə ki, Hekşer son faydalılıq nəzəriyyəsinə əsasən istehsal amilləri qiymətlərinin beynəlxalq tarazlığının tendensiyasını formalaşdırmışdır. Marksist konsepsiyası – bu konsepsiyanın banisi K.Marks kapital ixracının səbəbini onun ölkədə nisbi artıqlığında görür. Nisbi artıq kapital məvhumu altında o, elə kapital nəzərdə tuturdu ki, bu kapitalın ölkə daxilində istifadəsi gəlir normasının aşağı düşməsinə səbəb olur. İnhisarçı üstünlüklər modeli – bu model S.Haymer tərəfindən hazırlanmış və sonralar Ç.P. Kindleberqer, R.E. Keyvz, Y.C. Conson, R. Lakru tərəfindən inkişaf etdirilmişdir. Əmtəənin həyat dövrü modeli. Bu model amerikan iqtisadçısı R. Verno tərəfindən firmanın artım nəzəriyyəsi əsasında hazırlanmışdır. Beynəlmiləşmə modeli. Bu modelin yaradıcıları P.Bakli, M.Kesson, C.Makmanus, C.Danninq və s. hesab edirdilər ki, formal beynəlxalq əməliyyatların əksər hissəsini iri təsərrüfat- şirkətdaxili əməliyyatlar təşkil edir.



Qeyri-neft sektoru və investisiyaların qarşılıqlı münasibətlərinin düzgün bir şəkildə qavranılması üçün investisiya anlayışının elmi izahının verilməsi zəruri bir əhəmiyyət kəsb edir. İnvestisiya sözünün etimologiyası iki sözün birləşməsi üzərində qurulmuşdur, "in vest" sözlərindən ibarətdir. Bu iki sözün birləşməsi ingilis dilində kapital qoyuluşlarını özündə ehtiva etməkdədir. İnvestisiyaların səviyyəsi mütləq bir şəkildə cəmiyyətin milli gəlirinin həcminə, bununla da sosial vəziyyətə, iqtisadi fəallığa, iqtisadi motivasiyaların formalaşmasına birbaşa təsir göstərir. Dünya təcrübəsi göstərir ki, istənilən iqtisadiyyatın yüksəlişi ancaq investisiyalar üzərində mümkündür. İnvestisiya fəallığı ilk öncə fəaliyyət göstərən müəssisələrdə artırılmalıdır.

Azərbaycan iqtisadiyyatına investisiyaların tətbiqinin mövcud vəziyyəti və onun tənzimlənmə mexanizmləri Azərbaycan iqtisadiyyatına qoyulan investisiyaların göstəricilərində özünü biruzə verirdi. Azərbaycanda «açıq qapı» siyasətinin tələblərinə uyğun olaraq xarici investorları ölkə iqtisadiyyatı daha çox cəlb etmiş və onların ardıcıl olaraq sərmayə qoyuluşları daha da güclənmişdir. Burada bir cəhəti qeyd etmək lazımdır ki, ölkəyə xarici investisiyaların qoyulması və investisiya fəaliyyəti haqqında qəbul olunmuş Azərbaycan Respublikası qanunlarının mühüm rolu olmuşdur. Azərbaycana xarici investisiyaların cəlb edilməsi sahibkarlığın inkişaf göstəricilərində öz müsbət təsirini hiss etdirmişdir. İnvestisiyaların illər üzrə göstəriciləri respublikanın bu sahədə uğurlarından xəbər verməkdədir.

Cədvəl 1

Ölkə iqtisadiyyatına yönəldilmiş investisiyalar
(mln. ABŞ dolları)

| Göstəricilər | 1995-2002 | 2003-2012 | 1995-2012 (ümumi) |
|---|---|---|---|
| Cəmi investisiyalar | 12473,6 | 131947,3 | 144421,0 |
| Daxili investisiyalar | 3353,9 | 67828,8 | 71182,8 |
| Neft sektoru | 902,5 | 9952,6 | 10855,0 |
| Qeyri-neft sektoru | 2451,7 | 57876,2 | 60327,8 |
| Xarici investisiyalar | 9119,8 | 64118,5 | 73238,2 |
| Neft sektoru | 6105,3 | 37359,3 | 43464,6 |
| Qeyri-neft sektoru | 3014,4 | 26759,2 | 29773,6 |

Son illərdə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası prosesi intensiv xarakter almışdır.

Cədvəl 1-dən də göründüyü kimi 1995-2012-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş 144,4 milyard dollar investisiyanın 50%-dən çoxu, yəni 73 milyard dollara yaxını xarici investisiyalar olmuşdur. 1995-2012-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların 29,8 milyard dolları qeyri-neft sektorunun, 43,5 milyard dollara yaxın isə neft sektorunun inkişafına yönəldilmişdir.

Qeyri-neft sektorunda fəaliyyət göstərən birgə və xarici investisiyalı müəssisələri cəlb edən əsas sahələr sənaye, tikinti, nəqliyyat və ticarətdir. Tam xarici investisiyalı və birgə müəssisələrin yaradılmasında Türkiyədən olan sahibkarların payı 27,6% təşkil edir. Bu göstərici Böyük Britaniya üzrə 11,7%, Rusiya üzrə 6,8%, İran üzrə 6,2%, ABŞ üzrə 5,9%, Almaniya üzrə isə 2,9%-dir.



Cədvəl 2

Neft və qeyri-neft sektoru üzrə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyalar (mln. ABŞ dolları)

| Sahələr | 1995-2002 | 2003-2012 | 1995-2012 (ümumi) |
|---|---|---|---|
| Neft sektoru | 7007,8 | 47311,9 | 54319,6 |
| Qeyri-neft sektoru | 5466,1 | 84635,4 | 90101,4 |

Dissertasiyanın **ikinci fəsli "Azərbaycanin qeyri-neft bölməsinə investisiyalarin cəlb olunmasi və milli iqtisadiyyatin səmərəliliyinin artırılmasinda onun rolu"** adlanır. Burada milli iqtisadiyyatın təhlükəsizliyinin təmin olunmasında qeyri-neft bölməsinin rolu və qeyri-neft bölməsinə investisiyaların cəlb olunmasının mövcud vəziyyəti tədqiq edilmişdir. Azərbaycan Respublikası iqtisadi siyasətində qeyri-neft sektorunun xüsusi inkişaf etdirilməsinə böyük önəm verilir. Heydər Əliyevin əsasını qoyduğu iqtisadi siyasi kurs Azərbaycan Respublikasına 2003-cü ildən rəhbərlik edən Cənab Prezident İlham Əliyev tərəfindən davam etdirildi. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev iqtisadiyyatda qeyri-neft sektorunun inkişafına təkan verən bir sıra fərman və sərəncamlar verdi. Sahibkarlığın qeydiyyatı və gömrük sənədləşməsində tətbiq edilən bir pəncərə prinsipi isə Azərbaycanda qeyri-neft sektorunun inkişafında olduqca əhəmiyyətli rol oynadı. İlham Əliyevin Azərbaycana rəhbərlik etməsindən sonra qeyri-neft sektorunda iri sahibkarlıq subyektləri və xoldinqlər fəaliyyətə başladı. Hər bir sahənin inkişafında əldə edilən uğurların timsalında milli iqtisadiyyatın təhlükəsizliyinə qeyri-neft bölməsinin verdiyi töhfələri görmək olar. 2013-cü ildə iqtisadiyyatın qeyri-neft sektoru 10 faiz artmış, onun ÜDM-də xüsusi çəkisi əvvəlki ildə 53,5 faizdən 56,6 faizədək yüksəlmişdir. Ötən il ölkə iqtisadiyyatının aparıcı sahəsi olan sənaye sahəsində istehsal edilən məhsulun və göstərilən xidmətlərin 74 faizi mədənçıxarma bölməsində, 20,1 faizi emal, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində yaradılmışdır. İl ərzində sənayenin qeyri-neft bölməsində 4,8 faizlik artım qeydə alınmışdır. Bir sözlə, milli iqtisadi təhlükəsizliyin təminatında qeyri-neft sektoru iqtisadiyyatın bir sahədən asılılığını aradan qaldırmağa

kömək edir. Beynəlxalq böhranlar nəticəsində bir iqtisadi sahədən, o cümlədən neft sektorundan bilavasitə asılılıq sosial həyata mənfi təsir edə bilər. Azərbaycan dövləti bu cəhəti nəzərə alaraq, qeyri-neft sektorunun inkişafına yönəlmiş bir siyasət həyata keçirir. Bu siyasət qeyri-neft sektorunun payının ÜDM-də daha da artmasına yönəlmişdir. Əlbəttə qeyri-neft sektorunun inkişafında müəyyən yeniliklərə də ehtiyac var ki, bunlar haqqında sonda tövsiyyələr veriləcəkdir.

Milli iqtisadiyyatın qeyri-neft bölməsinə investisiyaların cəlb olunmasının mövcud vəziyyətini qiymətləndirərkən qeyd etmək lazımdır ki, milli iqtisadiyyatın qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi məsələsi Azərbaycan Respublikası siyasi rəhbərliyinin iqtisadi siyasətinin əsas tərkib hissələrindən olmuşdur. Bəlli idi ki, investisiya yönəlmələrinin müəyyən iqtisadi siyasət elementlərinin tətbiqi ilə diversifikasiya edilməməsi ölkə iqtisadiyyatının gələcək imkanlarının məhdudlaşdırılmasına gətirib çıxarda bilər. Ancaq investisiyaların iqtisadiyyatının əsas sektoru karbohidrogen ehtiyatlarının hasilatı və qismən də emalı olan Azərbaycan Respublikasında qeyri-neft sektoruna yönəldilməsi elə də asan iş olmamışdır. Bunun başlıca səbəbi investisiya qoyuluşlarında mühüm payı olan xarici investorların əsasən neft-qaz sektoruna maraq göstərməsi idi. Azərbaycan Respublikasının iqtisadi cəhətdən ayağa qalxmasından sonra qeyri-neft sektoruna ən böyük investorlardan biri də elə dövlətin özü oldu. Kifayət qədər böyük maliyyə vəsaitlərinin cəlb edildiyi iqtisadiyyatın istehsal, nəqliyyat və infrastruktur sahələrini əhatə edən dövlət investisiya layihələri işə salındı. Dövlət investisiya layihələrinin işə salınması öz növbəsində iqtisadi bazisin güclənməsinə gətirib çıxardı. İqtisadi bazisin güclənməsi isə qeyri-neft sektorunu investorlar üçün maraqlı etməyə başladı. Bütün bunlar görülən işlərin məqsədyönlü təzahürləri idi. Amma bununla yanaşı, bir sıra hallarda Azərbaycan Respublikası qeyri-neft sektoruna investisiyaların yönəldilməsində problemlər də qalmaqda idi. Birinci növbədə, bu sahəni tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilməsi prosesi davam etməli idi. İkincisi, mexanizm və vasitələrin müasir tələblərə uyğunlaşdırılması lazım idi. Bu istiqamətdə çoxlu işlər görülsə də, hələ görüləcəklər də az deyil ki, çoxluq təşkil etməlidir. Azərbaycan Respublikası qeyri-neft sektoruna investisiyaların cəlb edilməsində problemlərin bir səbəbi də bəzi instansiyalarda korrupsiya elementlərinin qalması idi. Həmin elementlərin qəti bir şəkildə aradan qaldırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin başçılığı ilə dövlət siyasəti reallaşdırılmağa başladı. Korrupsiya elementlərinin yaranmasına təkan verən səbəblərin ortadan qaldırılması üçün onlara



səbəb olacaq qanunvericilik və mexanizm sistemləri yenidən gözdən keçirilməyə başladı.

Dissertasiyanın **üçüncü fəsli "Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya olunmasında qeyri-neft bölməsinə investisiya qoyuluşlarının rolu"** adlanır. Bu fəsildə regionların iqtisadi potensialından səmərəli istifadə olunmasında qeyri-neft bölməsinə investisiya qoyuluşlarının rolu, qeyri-neft bölməsinə xarici investisiyaların stimullaşdırılması və ölkənin ixrac potensialının artırılmasında qeyri-neft bölməsinə investisiyaların cəlb olunmasının perspektiv imkanları öz əksini tapmışdır. Azərbaycan Respublikasında regionların sərvətlərindən və təbii şəraitindən səmərəli istifadə etməklə kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, qeyri-neft sənaye sahələrinin, o cümlədən emal sənayesinin, xidmət və digər infrastruktur obyektlərin, turizmin inkişafını təmin etmək, məşğulluğun səviyyəsini yüksəltmək və əhalinin güzəranını daha da yaxşılaşdırmaq məqsədi ilə 11 fevral 2004-cü ildə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)» təsdiq edildi. Proqrama görə Azərbaycan Respublikasının Nazirlər Kabineti, aidiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanları Dövlət Proqramının icrasını təmin edən zəruri tədbirlər görməli oldu. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi və regionlara investisiyaların cəlb edilməsi məqsədilə beynəlxalq maliyyə institutları, xarici ölkələrin dövlət orqanları və iş adamları ilə müvafiq danışıqlar aparmaqla vəzifələndirildi. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirılmışdi. Bu iclasda Azərbaycan Respubliksı prezidentinin çıxışında Azərbaycanda iqtisadi islahatlar nəticəsində əldə olunan uğurlar göstərilmişdi. Prezident qeyd etmişdi ki, 2008-ci il də Azərbaycan iqtisadiyyatı üçün uğurlu başlanmışdır. Bildiyiniz kimi, son dörd il ərzində, 2004-2007-ci illərdə ölkə iqtisadiyyatı 96 faiz artmışdır. Azərbaycanın büdcəsi ildən-ilə artır, 2008-ci ilin büdcəsi 12 milyard dollar səviyyəsindədir. Bu, 2003-cü illə müqayisədə on dəfə çoxdur. Birinci Dövlət Proqramının başaçatmasından bir il sonra ikinci Dövlət Proqramının nəticələri müəyyən mülahizələr söyləməyə imkan verməkdədir. «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının» icrası ölkə iqtisadiyyatında mühüm əhəmiyyət kəsb etməklə, 2009-cu il ərzində makroiqtisadi sabitliyin təmin olunmasında, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və yeni iş yerlərinin yaranmasında, infrastruktur və kommunal xidmətlərin səviyyəsi-

nin daha da yüksəldilməsində, yoxsulluq həddinin aşağı düşməsində və əhalinin rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynamışdır. Ölkə üzrə həyata keçirilən məqsədyönlü tədbirlərin davam etdirilməsi və iqtisadi sabitliyin qorunub saxlanması nəticəsində 2009-cu ildə 34,6 milyard manatlıq Ümumi Daxili Məhsul (ÜDM) istehsal edilmiş və əvvəlki ilin eyni dövrünə nisbətən 9,3 faiz artmışdır. ÜDM-in adambaşına düşən həcmi 3917,3 manat (4874,1 ABŞdolları) təşkil etmiş və əvvəlki ilin eyni dövrünə nisbətən 7,9 faiz artmışdır. ÜDM-in 64,1 faizi iqtisadiyyatın istehsal, 28,3 faizi xidmət sahələrinin payına düşmüşdür.

Azərbaycanda qeyri-neft sektorunun inkişaf strategiyasının işlənib hazırlanması və həyata keçirilməsinə hökümət tərəfindən xüsusi diqqət yetirilir. Respublikada Azərbaycan alimləri tərəfindən aparılan araşdırmalar onu göstərir ki, qeyri-neft sektorunun inkişafı üzrə strategiya iki istiqaməti-bu sektorda struktur islahatlarının aparılması ilə onun inkişafının dəstəklənməsinin və neft gəlirlərin düzgün idarə olunması vasitəsilə makroiqtisadi sabitliyin qorunub saxlanılmasını əhatə edir. Qeyri-neft sektorunun stimullaşdırılması müasir iqtisadiyyatın inkişaf edən tələblərinə müvafiq olaraq, strategiyası isə öz növbəsində bir çox kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Nəzərdə tutulmuş strateji xəttə görə ilk növbədə qeyri-neft sektorunda biznesin daha da həvəsləndirilməsi, onun kreditləşdirilməsi mexanizmlərinin yaradılması və bu istiqamətdə neft gəlirlərindən fəal istifadə mühüm şərtdir. Digər tərəfdən, qeyri-neft sektorunda vergi dərəcələrinin neft sektoruna nisbətən aşağı salınması, investisiyaların stimullaşdırılması, xüsusilə kənd təsərrüfatının xarici iqtisadi müdaxilədən qorunması, özəlləşdirilən müəssisələrdə texnoloji yeniliklərin həvəsləndirilməsi və bununla bağlı layihələrin kreditləşdirilməsi də diqqət mərkəzində saxlanılır. Bu sahədə mühüm məsələlərdən biri də qeyri-neft sektorunun subsidiyalaşdırılması hallarının mərhələlərlə aradan qaldırılması və sahənin neft sektorundan asılılığının azaldılmasından ibarətdir.

Ölkənin ixrac potensialının artırılmasında qeyri-neft bölməsinə investisiyaların cəlbolunmasının perspektiv imkanlarını araşdırarkən Azərbaycanda qeyri-neft sektorunun inkişafına yönəlmiş tədbirlərin kompleks şəkildə həyata keçirilməsi ixracyönümlü məhsulların istehsalını sürətləndirən müvafiq iqtisadi mexanizmlərin tətbiqi əsasında mümkün ola biləcəyini qeyd etmək lazımdır. Ölkənin ixrac potensialının inkişaf etdirilməsi, Azərbaycan malları və xidmətlərinin xarici bazarlara çıxarılması, bunun üçün əlverişli şəraitin yaradılması, ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına səmərəli inteqrasiyasını təmin etmək üçün tədbirlərin həyata keçirilməsi qarşıdakı illərdə prioritet istiqamətlərdən olmalıdır.ölkənin ixrac potensialının səmərəli reallaşması, daxili bazarda sağlam rəqabət mühitinin formalaşması, istehlakçıların hüquqlarının qorunmasının təmin edilməsi, standartlaşdırma və metrologiya sahələrinin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi vacibdir. Bu tədbirlər dövlət proqramlarında nəzərdə tutulan kimi həyata keçirilsə investisiyaların ixrac yönlü sahələrə axını da sürətlənə bilər. Özəl sektorda ixracın stimullaşdırılması və ixrac mallarının çeşidinin artırılması,milli istehsalçıların xarici bazarlarda mövqelərinin möhkəmləndirilməsi, maraqlarının müdafiəsinin gücləndirilməsi istiqamətlərində müvafiq tədbirlərin həyata keçirilməsi, ticarət, iaşə və məişət sahələrində xidmət səviyyəsinin daha da yüksəldilməsi və ÜTT prinsipləri çərçivəsində daxili bazarın qorunması tədbirlərinin həyata keçirilməsi, haqsız rəqabət hallarına qarşı mübarizənin gücləndirilməsi və rəqabətin inkişafı ilə bağlı tədbirlərin həyata keçirilməsinə sahibkarların və istehlakçıların cəlb olunması,istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin gücləndirilməsi investisiyaların keyfiyyətli qoyuluşuna birbaşa təsir etməkdədir. Sənaye sahəsində əsas məqsədlərdən biri regionlardakı mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, yeni müəssisələrin yaradılmasından ibarət olmalıdır. Burada kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin bərpasına və ixrac potensialının artırılmasına xüsusi diqqət yetirilməlidir. Sənaye sektorunda əsas məqsədə nail olmaq üçün bir sıra tədbirlərin həyata keçirilməsi investisiya imkanlarını artıra bilər. İnvestisiya milli iqtisadiyyatın inkişafının mühüm maliyyə mənbəyidir. Bu mənbə hesabına nəinki, ancaq istehsal inkişaf etdirilir, eyni zamanda iqtisadiyyatın strukturunda ciddi sosial yönlü dəyişikliklərin baş verməsinə səbəb olur. Nəzərə alsaq ki, ümumiyyətlə, investisiya anlayışları məna etibarı ilə mənfəət almaq məqsədilə həm ölkə daxilində, həm də xaricində tətbiq olunan maliyyə resursudur, onda istər-istəməz onun iqtisadiyyatının bütün sahələrinə, xüsusən həm hasil, həm emal sahəsinə, eləcə də xidmət sahəsinə tətbiqi onun uzun və qısamüddətli xarakter daşımasına səbəb olur. Respublikamızın iqtisadiyyatına xarici kapital qoyuluşunu bəzi iqtisadiyyatçılar 4 mərhələyə bölürlər. Birinci mərhələ 1992-1993-cü illəri əhatə edir. Bu dövrdə xarici kapitalın ölkə iqtisadiyyatına cəlb olunmasına biganə yanaşıldığı müşahidə olunur (bu sahəyə dair bəzi qanun və digər hüquqi normativ aktların qəbul edilməsi istisna olmaqla ). İkinci mərhələ 1994-1996-cı illəri əhatə edir. Bu mərhələdə ölkəyə xarici kapitalın cəlb olunması və onun fəaliyyətinin tənzimlənməsi sahəsində birinci mərhələdə qəbul olunmuş qanunlar dəyişiklik və əlavələr edilməklə yanaşı, bir sıra

yeni qanunlar qəbul edilmiş və zəruri təşkilati-idarəetmə tədbirləri görülmüşdür. Bunun nəticəsidir ki, ölkə iqtisadiyyatına xarici kapitalın real olaraq cəlb olunması da məhz bu dövrə təsadüf edir. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın bir çox dövlətləri ilə 21 neft müqaviləsi bağlanmış və 2004-cü ildə burada 14 ölkənin 32 böyük şirkəti, habelə 400-ə qədər servis xidməti göstərən müxtəlif xarici ölkə şirkəti fəaliyyət göstərir və həmin şirkətlərdə 10000 nəfərdən artıq Azərbaycan mütəxəssisi işləyir. Ancaq təhlil göstərir ki, qeyd edilən dövrdə ölkə iqtisadiyyatına cəlb edilən xarici investisiya əsasən birtərəfli qaydada neft sektoruna yönəlmişdir. Üçüncü mərhələ, 1997-2000-ci illəri əhatə edir. Bu dövrdə xarici kapitalın neft sektoru ilə yanaşı iqtisadiyyatın digər sahələrinə cəlb edilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasına xarici kapitalın cəlb olunması və onun fəaliyyətinin tənzimlənməsinin hüquqi bazasını Azərbaycan Respublikasının müvafiq qanunları "Xarici investisiyaların qorunması haqqında", "İnvestisiya haqqında" və digər qanunvericilik aktları və iştirakçısı olduğu beynəlxalq müqavilələr təşkil edir. O da məlumdur ki, Azərbaycan Respublikasının iqtisadiyyatına xarici kapitalın cəlb edilməsinə real surətdə 1994-cü ildən başlamışdır. 1994-cü ildə ölkə iqtisadiyyatına 296 milyon dollar məbləğində investisiya qoyulmuşdur. Onun 146 milyon dolları və ya 49,3%-ni daxili, 150 milyon dollar və ya 50,3%-ni isə xarici investisiyalar təşkil etmişdir. Əlavə üçün qeyd edək ki, ümumiyyətlə, 1996-2006-cı illər ərzində ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 36,7 milyard dollar investisiya qoyulmuşdur. Bunun da 25,7 milyard dolları 17-dən çox investisiyaların payına düşür. Dördüncü mərhələ xarici investisiya siyasəti Azərbaycan dövlətinin ümumi investisiya siyasətinin mühüm tərkib hissəsi olub, milli iqtisadiyyatın yüksəlməsində, onun stabil inkişafında və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində özünəməxsus rol oynayır.

Bu siyasətin həyata keçirilməsi üçün xüsusi investisiya proqramları işlənib hazırlanmalı və həmin proqramlarda milli iqtisadiyyatın xüsusiyyətləri, keçid dövrünün şərtləri və beynəlxalq təcrübə hər tərəfli öyrənilib nəzərə alınmalıdır. Bu zaman ölkə iqtisadiyyatının inkişafı üçün strateji əhəmiyyət kəsb edən sahələrə xüsusi diqqət yetirilməlidir. Belə sahələrdən biri də yanacaq-energetika olduğundan ilk növbədə həmin sahələrə xarici kapitalın cəlb edilməsi üçün ayrıca investisiya planı işlənib hazırlanmalı və həyata keçirilməlidir. Digər tərəfdən qeyri-neft sektoruna xarici kapitalın cəlb olunması da diqqət mərkəzindən qaçmamalı və mühüm vəzifə kimi qaşıda durmalıdır. Lakin qeyri-neft sektorunun ayrı-ayrı sahələri üzrə investisiya proqramlarının işlənməsi, burada komplekslilik siyasəti ilə



ziddiyyət təşkil edir. Fikrimizcə bu proqramlar sistemli şəkildə işlənməli və bu sahənin müxtəlif bölmələri arasındakı qarşılıqlı əlaqələri özündə əks etdirməlidir. Neft sektorundan alınan gəlirlər qeyri-neft sektoruna yönəldilməsi üçün də kompleks proqramlar işlənib hazırlanmalıdır. Xarici kapitalın Azərbaycana cəlb olunmasını sürətləndirmək üçün əlverişli investisiya iqliminin formalaşması istiqamətləri bu proqramın əsasını təşkil edir.

Prespektivdə Azərbaycanın investisiya qoyuluşu nəticəsində ixracatçıya çevrilə biləcəyi sahələrdən biri də İKT-dir. Bütün dünya ölkələrində olduğu kimi, respublikamızda da telekommunikasiya sektoru inkişaf tempinə, yeniliklərin tətbiqinə, xarici və yerli investisiyaların cəlb olunmasına görə öncül yerlərdədir. 2007-ci il ərzində İKT müəssisələri tərəfindən əsas kapitala yönəldilmiş investisiyaların həcmi təxminən 190 milyon dollar həcmində olmuşdur. Qeyd olunmalıdır ki, qoyulan investisiyaların 95%-dən çoxu telekommunikasiya sektorunun payına düşür. Ümumiyyətlə, son 5 ildə telekommunikasiya sektoru üzrə ümumilikdə 850 milyon dollar həcmində investisiya qoyuluşu həyata keçirilmişdir ki, qoyulan investisiyaların təxminən 21,5%-i dövlət rabitə müəssisələrinin, 78,5%-i qeyri-dövlət rabitə müəssisələri payına düşür. Göründüyü kimi telekommunikasiya sektoruna qoyulan investisiyaların böyük hissəsi özəl sektorun payına düşür ki, burada da əsas üstünlüyü mobil rabitə sektoru təşkil edir. Həmçinin 2006-ci ildə telekommunikasiya və poçt sektoru üzrə 95 milyon dollar, 2007-ci ildə isə 20 milyon dollar həcmində xarici investisiya qoyuluşu edilmişdir.

Bu gün informasiya kommunikasiya texnologiyaları ölkəmizdə prioritet sahə kimi inkişafı qarşıya qoyulmuş vəzifələrin öhdəsindən lazımınca gələ biləcək və uzunmüddətli iqtisadi artımı təmin edəcək yeni sənaye sahələrindən biridir. İxrac yönlü investisiya qoyuluşları zamanı bu amil nəzərə alınmalıdır. Belə ki, müasir dünyada sənayeləşmənin və elm yönlü sosial-iqtisadi artımın katalizatoru olmaqla yanaşı, informasiya-kommunikasiya texnologiyaları Azərbaycanda karbohidrogen sənayesindən sonra ən dinamik inkişaf tempinə malik olan sahədir. Məlumdur ki, hazırda informasiya resurslarının 80%-i Qərb ölkələrində və Şimali Amerikada yerləşir. Son zamanlar Şərqdə informasiya resurslarına olan tələbat sürətlə artmağa başlamışdır. Bizim təhlillər göstərir ki, informasiyanın daşınmasında ümumi xərclərin böyük hissəsi məhz kommunikasiya xərclərinə sərf edilir. Azərbaycan Respublikasının Avropa və Asiya qitələri arasında əlverişli geoiqtisadi, coğrafi, eləcə də informasiya magistrallarının kəsişdiyi məkanda yerləşməsi ölkəmizin tranzit informasiya mərkəzinə çevrilməsini şərtləndirən amildir. Azərbaycanın təkcə İKT məhsullarının deyil,

həm də bu sahədə xidmətlərin beynəlxalq ixracatçısına çevrilməsi üçün ilk növbədə ölkədə kommunikasiya infrastrukturunun müasirləşdirilməsi və inkişaf etdirilməsi, Trans Asiya Avropa FİO kabel magistralının Xəzəraltı seqmentinin çəkilməsi mühüm əhəmiyyət kəsb edir. Məqsədə uyğun olardı ki, bu istiqamətdə investorların fəaliyyəti daha da güclü şəkildə təşviq edilsin. Belə olan halda region üçün informasiyanın daşınması xərcləri 2-3 dəfə azalacaq və Azərbaycan tranzit ölkə kimi gəlirlər əldə etmiş olacaq. Eyni zamanda Elektron Azərbaycan proqramının əsas komponentlərindən biri olan və respublikanın bütün ərazisini əhatə edən "AZDATACOM" şəbəkəsinin yaradılması, milli telekommunikasiya peykinin orbitə çıxarılması sahənin gəlirlərinin artmasını təmin edəcəkdir. İnformasiya mübadiləsinin xarici ölkələrdən asılılığının aradan qaldırılması, iqtisadi və informasiya təhlükəsizliyinin əsas komponentlərindən olan peyk sənayesinin yaradılması və telekommunikasiya peyklərinin hazırlanaraq orbitə buraxılmasını zəruri edir. Peyk rabitəsi xidmətlərinin ölkəmizdə daha geniş və keyfiyyətli təşkili məqsədi ilə Azərbaycana məxsus geostasionar peyklərin orbitə buraxılması xüsusi əhəmiyyət kəsb edir. Artıq bu istiqamətdə müəyyən işlər görülmüşdür. Belə ki, orbital mövqenin alınması razılaşdırılmış, texniki və iqtisadi əsaslandırma sənədləri hazırlanmış, xarici mütəxəssislərlə birgə peykin istehsalı və orbitə buraxılması məqsədilə müqavilə layihəsinin hazırlanması işləri yekunlaşmışdır. Layihə üzrə artıq 2010-cu ildə ilk telekommunikasiya peykinin orbitə buraxılması nəzərdə tutulurdu. Bir çox tanınmış şirkətlər də bu layihədə iştirak etmək niyyətlərini bildirmişlər. Bu layihə artıq baş tutmuş və Azərbaycan öz peykini 2013-cü ilin fevralında orbitə buraxmışdır.

Uzun müddət bir qədər diqqətdən kənarda qalmış məsələlərdən biri də ölkənin mebel istehsalının ixrac yönlülüyünün təmin edilməsidir. Prespektivdə meşə materialı ilə zəngin olan işğal edilmiş ərazilərin də azad edilməsi ixrac yönlü mebel istehsalına investisiya qoyuluşlarını daha da gücləndirə bilər. Ölkənin yerləşdiyi qeostrateji mövqe, Avropa və Asiya qitələrinin qovuşduğu ərazidə-tarixi "İpək yolunun" üstündə yerləşməsi, ölkəmizə böyük üstünlük verir. Ölkədə aparılan iqtisadi islahatlar Azərbaycanda mebel sənayesinə investisiya qoyuluşları imkanları yaradır. Məlum olduğu kimi Azərbaycan ərazisində nadir ağac növləri mövcuddur ki, bu da düzqün ekoiqtisadi model işləndiyi halda respublikaya müqahisəli üstünlük verər. Eyni zamanda ölkə ərazisində ağac ehtiyatlarını artırmaq üçün əlverişli iqlim şəraiti mövcuddur .

Ölkəyə külli miqdarda gəlir gətirə biləcək sahələrdən biri də turizmdir. Turizm müasir dünyada iqtisadiyyatın ən gəlirli sahələrindən biridir. Əksər



ölkələrin büdcəsinin formalaşmasında bu sahənin böyük rolu var. Təbii-coğrafi baxımdan əlverişli mövqedə yerləşən və zəngin təbii resursları olan Azərbaycanda da turizm sahəsindən gözləntilər çoxdur. Çünki ölkəmizdə bu sahənin inkişafı üçün kifayət qədər potensial var. Üstəlik, Azərbaycan dövlətinin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizdə turizm sahəsi böyük nailiyyətlər qazanır və gün-gündən inkişaf edir. Bütün regionlarımızda yeni turizm obyektləri tikilir, mədəni-tarixi qoruqlar yaradılır və bərpa edilir. Regionlarda infrastrukturun yaradılmasını dövlət öz üzərinə götürüb. Digər tərəfdən, İtaliya, Türkiyə, İspaniya və turizmdən külli miqdarda gəlir əldə edən digər ölkələrin təcrübəsi də onu göstərir ki, ilkin mərhələdə dövlətin dəstəyi olmadan turizmin sürətli inkişafına nail olmaq mümkün deyil. Məhz bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlar, Mədəniyyət və Turizm Nazirliyinin apardığı təbliğat işləri (ölkəmizin beynəlxalq turizm sərgilərində iştirakı, dünyanın aparıcı televiziya kanalları ilə yaxından əməkdaşlıq, orada Azərbaycanın turizm potensialını əks etdirən reklam roliklərinin yerləşdirilməsi), beynəlxalq təşkilatlarla, o cümlədən Ümumdünya Turizm Təşkilatı, İslam Konfransı Təşkilatı, GUAM, İƏT və başqa beynəlxalq qurumlarla sıx əməkdaşlıq və onların işlərində fəal iştirak etməsi dövlətin bu sahəyə böyük ümidlər bəslədiyinin sübutudur. Belə olan təqdirdə Azərbaycanda turizmin inkişafına dair investisiya layihələrinin inkişafına bir qədər də incəliklə yanaşılmalıdır.

Dissertasiya işinin **nəticə** hissəsində əldə edilmiş nəticələrin nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Tədqiqat işi ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap olunmuşdur:**

1. «Основные аспекты присоединения Азербайджана к ВТО» - «Beynəlxalq hüquq və inteqrasiya problemləri» jurnalı. №2 (10). Bakı, 2007, s. 393-400.
2. «İnvestisiya anlayışı və investisiya fəaliyyəti: onun obyekt və subyektləri.» - «Beynəlxalq hüquq və inteqrasiya problemləri» jurnalı. №3 (15). Bakı, 2008, s.300-312.
3. «Применение инвестиционных ресурсов в ненефтяном секторе с целью реализации экономического потенциала регионов.», Экономика, социология и право, № 9, М. 2009, стр. 32-35.
4. «Перспективы привлечения инвестиций в ненефтяной сектор в реализации экспортной политики Азербайджана.», Экономика, социология и право, № 10, М., 2009, стр. 5-8.
5. «Qeyri neft bölməsinə xarici investisiyaların stimullaşdırılması.» -

«Beynəlxalq hüquq və inteqrasiya problemləri» jurnalı. Bakı, 2009, s.54-63.

6. «Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin inkişafında birja fəaliyyətinin rolu.» – «İnsan hüquqları haqqında ümumi bəyannamənin qəbul edilməsinin 62-ci ildonümünə həsr edilmiş “İnsan hüquqları sahəsində Azərbaycan Respublikasının Beynəlxalq əməkdaşlıq siyasəti: formalaşması və yeni inkişaf tendensiyaları” mövzusunda 09 dekabr 2010-ci il tarixdə keçirilmiş Respublika Elmi-Praktik Konfransın Materialları, Bakı Dövlət Universiteti, s. 216 – 217.



## Резюме

**Алиев Теймур Шахваладович**

## Современное положение и перспективы привлечения инвестиций в ненефтяной сектор экономики Азербайджанской Республики

Диссертация посвящена изучению современного положения и перспектив привлечения инвестиций в ненефтяной сектор экономики Азербайджанской Республики.

В введении доказывается актуальность изучения проблемы и говорится о научно-теоретической базе диссертации. Затем определяются цели и задачи исследования. Раскрывается методика диссертации и информируется о новизне работы.

Первая глава называется «Инвестиционный спрос экономики Азербайджана и средства его обеспечения». В этой главе в трех параграфах затрагиваются теоретические и практические проблемы.

Вторая глава называется «Привлечение инвестиций в ненефтяной сектор Азербайджана, и ее роль в повышении эффективности национальной экономики». Здесь внимание уделено формированию современной системы экономики страны, тенденциям и реформам. В конце главе речь идет о выгодных проектах в контексте прозрачности.

Третья глава называется «Роль привлечения инвестиций в ненефтяной сектор Азербайджана в интеграции в мировую экономику». Здесь также изучаются важные аспекты работы.

В заключении подводятся итоги и выдвигаются научные предложения, которые в последствие можно применить как оптимальные методы улучшения ситуации в этой области.

## Summary

**Teymur Shakhvaladovich Aliyev**

### Modern situation and perspectives of investment attraction to the non-oil sector of the economy of the Republic of Azerbaijan

This dissertation studies modern situation and perspectives of attracting investment to the non-oil sector of the economy of the Republic of Azerbaijan.

In the introduction the author proves actuality of studying the problem. After that the author discusses scientific-technical basis of the work, determines objectives and tasks, describes methodology and novelty of the work.

The first chapter is called “Investment demand of Azerbaijan economy and means of meeting it.” In this chapter in three clauses theoretical and practical problems are reviewed.

The second chapter is called “Investment attraction into the non-oil sector of Azerbaijan and its role in the efficiency improvement of national economy.” Here the attention is focused on the formation of modern economy of the country, tendencies and reforms. At the end of the chapter profitable projects in the context of transparency are discussed.

The third chapter is called “The role of investment attraction into the non-oil sector of Azerbaijan in the integration into the world economy”. Herein also important aspects of the work are studied.

At the end the results are summarized and scientific proposals that can be further used as optimal means of improving the situation in this field are proposed.

Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 039, tiraj 100

Azərbaycan Dövlət Aqrar Universitetinin mətbəəsi

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ozan küçəsi, 102

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

---

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

===========================================

*На правах рукописи*

**ТЕЙМУР ШАХВАЛАДОВИЧ АЛИЕВ**

# СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ ПРИВЛЕЧЕНИЯ ИНВЕСТИЦИЙ В НЕНЕФТЯНОЙ СЕКТОР ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

5308.01– «Общая экономика»

**АВТОРЕФЕРАТ**

диссертации на соискание научной степени
доктора философии по экономике

**Гянджа – 2014**